**Aliməqam təqlid mərcəi Ayətullahul-Uzma Seyid Əli Huseyni Sistani**

**cənablarının (ömrü uzun olsun) fətvalarına mütabiq olaraq**

# Qadınların şəriət hökümlərinin sadə şəkildə öyrədilməsi

**Heyz – İstihazə – Nifas – Qüsl – Təyəmmüm**

# Diqqət

kitabda bu [  ] əlamət daxilində qeyd edilən şəri hökümlər **vacib ehtiyata əsaslanır**; müqəllid belə hallarda ələmiyyət tərtibini riayət etməklə digər bir müctəhidin fətvasına müraciət edə bilər

# Bismilləhir Rahmənir Rahim

## Ön söz

Qurani-Kərimin Nəhl surəsinin 97-ci ayəsində buyurur:

”مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ“

*“Mömin olub yaxşı işlər görən kişi və qadına şübhəsiz, pak bir həyat nəsib edəcək və gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik”*

İslam dini qadının kəraməti üçün ən gözəl ülgünü nümayiş etdirmiş və onun şəxsiyyətini, vəzifələrini, məsuliyyətlərini və bacarıqlarını zinətləndirməklə heç vaxt qadının məqam və mövqeiyyətini kiçiltmək fikrində olmamışdır.

Dinin təlim və tərbiyəvi tövsiyələrinə müxtəsər şəkildə müraciət etməklə aydın olur ki, İslam dini qadının ilk təvəllüdündən onun ən yüksək kamal mərtəbələrinə çatmasına qədər şəxsiyyətini əzəmətlə yad etmiş və təkamül zirvəsinə ucalmaqda onun üçün heç bir hədd-hüdud qoymamışdır.

Din, qadının iffət və saflığına müvafiq olan hökümlər müəyyən etmiş, onun vücudunda mətanətli olmağı çiçəkləndirmiş və həmişə Allahın dərgahında və qayğısında olduğunu vurğulamışdır. Qadına qorxu, ümid və səy etmək duyğusu vermiş, onu qarşı cinsdən – kişidən – öncə dini öhdəlikləri üzərinə götürüb Allah-təbarək və təala ilə ünsiyyət bağlamaq

şərəfinə nail etmişdir. Fitrətində olan iffət libasına şəriət siması verib, onu şəhvət düşkünlərinin və tamahkarların təcavüzünə məruz qalmasın deyə örtmüş və gözəlliklərinin qorunması üçün ona möhkəm bir qala düzəltmişdir. Seçim azadlığını ona həvalə etdi ki, dini təlimlərdə qadın və kişi arasında bərabərlik məfhumu hamı üçün aşkar oldu.

Qadını, zatındakı gözəl ətri ilə hər tərəfi ətirləndirib qorunan qızıl gülə bənzədən İslam dinində olan baxışla, onu insanlıq məqamından aşağıda görən qədim cahiliyyət anlayışı arasında böyük fərq vardır. Eləcə də müasir cahiliyyət baxımından qadının fizioloji və psixoloji xüsusiyyətlərini inkar edən anlayış da son dərəcə fərqlidir.

Qurani-Kərim qədim cahiliyyət düşüncəsini belə təsvir edir:

**“وَإِذَا بُشِّرَ أَحَدُهُمْ بِالْأُنْثَى ظَلَّ وَجْهُهُ مُسْوَدًّا وَهُوَ كَظِيمٌ؛ يَتَوَارَى مِنَ الْقَوْمِ مِنْ سُوءِ مَا بُشِّرَ بِهِ أَيُمْسِكُهُ عَلَى هُونٍ أَمْ يَدُسُّهُ فِي التُّرَابِ”**

*“Onlardan birinə qızının olması müjdəsi verilən zaman, qəzəb onu boğduğu halda üzü qapqara qaralar. Verilən müjdənin pisliyindən öz tayfasından qaçıb gizlənər: görəsən, onu zillət içində saxlasın, yoxsa torpağa basdırsın?”* (Nəhl surəsi, ayə 58-59)

Beləliklə, bu iki cahiliyyətdən biri qadını məhdudlandırır, onun inkaredilməz roluna etina etmir və Yaradanın hikmətinin ziddinə olan xəyallara qapılır. Digər cahiliyyət isə onu alış-veriş üçün əməkçi və məhsuldar qüvvə bilir və kişinin heyvani instinktiv tələblərini təmin etmək məqsədi ilə ondan bazarda reklam və təbliğat ünsürü kimi istifadə edir. Müasir cahiliyyət ailədə qadının mühüm rolunu ləğv etmiş və beləliklə, ailə həyatının dağılmasına səbəb olmuşdur.

Əgər bəzi məqamlarda qadının vücudunun mehvər olmasını və ondan başqa heç bir şəxsin onun rolunu ifa edə bilməyəcəyini desək, heç də mübaliğə deyildir. Sübhan olan Allah buyurur:

"وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُمْ مِنْ أَنْفُسِكُمْ أَزْوَاجًا لِتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُمْ مَوَدَّةً وَرَحْمَةً"

“Onlarla aram tapasınız deyə, sizin üçün öz cinsinizdən zövclər xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir.” (Rum surəsi, ayə 21)

Qadın və kişi insaniyyətdə bir-biri ilə bərabərdirlər və elə bu baxımdan Qurani-Kərim onlara bir bəyanla xitab edərək buyurur:

" فَاسْتَجَابَ لَهُمْ رَبُّهُمْ أَنِّي لاَ أُضِيعُ عَمَلَ عَامِلٍ مِنْكُمْ مِنْ ذَكَرٍ أَوْ أُنْثَى "

“Rəbbi də onların dualarını qəbul edərək cavab verdi: ”İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram.” (Ali-İmran surəsi, ayə 195)

Qadın, övladlarını öz qucağında tərbiyə edən nümunəvi bir müəllim və cəmiyyətin süqutunun qarşısını alan sanki möhkəm bir qaladır. O, peyğəmbərlər və İlahi övliyalar anasıdır.

Ey müsəlman xanım! Dini mədəniyyət ilə digər mədəniyyətləri müqayisə et, gör qadına xoşbəxtlik töhfəsini bunlardan hansı bağışlamışdır və qadın hansı şəraitdə aram tapıb asayişə çata bilmışdır? İslam qanunvericiliyində ana və qadın hüquqları, eləcə də onların ictimai mövqei haqqında ətraflı düşün və həqiqətləri gör.

Qadının başqa təfəkkürlərin təsiri altına düşdüyü zaman mövqeyini necə itirdiyinə, özünü ən ucuz və dəyərsiz qiymətlərə satdığına nəzər sal. Şübhəsiz, bu onun dünyəvi mövqeyidir, qaldı ki, axirətdə olan vəziyyəti...

Dünyanın hansı istiqamətdə hərəkət etməsinə diqqət et! Talaq sayının göstəricisi, intihar etmək, evlənmə yaşının artması, ailə həyatının süqutu, övladların mehr-məhəbbətdən məhrum olmaları, qadını təhlükə qarşısında qoymaq, onu bazara şıxarmaq, onun sevgi və məhəbbət duyğularını təmin etməmək və bu kimi çox əhəmiyyətli məsələləri dəyərləndir.

Beləliklə, aydın olur ki, dini nöqteyi-nəzərdən qadın və kişi insanlıq və təkamül baxımından bərabər səviyyədə dururlar. Onlar gərək hidayət yolunu qət edib Allah-təalaya doğru ucalsınlar ki, axirət səadətinə çatsınlar. Deməli, həm qadın, həm də kişi öz hökmlərinə nisbət kamil şəkildə məlumatlı olmalı və hər zaman şəriət hökmlərini öyrənib, onlara əməl etməyə çalışmalıdır. Bu mühüm məqsədə xidmət olaraq qadınların şəri hökmləri ilə əlaqədar müsahibə formasında yazılan qarşınızdakı kitabçanı hazırlamışıq. Ümid edirik ki, qadın dünya və axirətdə olan yüksək məqamına nail olsun.

Əhməd Əşkuri

# Heyz barəsində müsahibə

Bu gün qəməri tarixi ilə doqquz yaşımımı başa vurdum və həddi-büluğ yaşına yetişdim. Anam öz həmişəki yerində əyləşib, gülər üzlə mənə baxdı. Bu baxışından zehnində yeni bir fikrin olduğunu hiss etdim. O dedi: Bu gün səninlə heyz haqqında danışmaq istəyirəm.

O gündən öncə heyzin nə demək olduğunu bilmirdim. Hərçənd bu kəlməni öncə eşitdiyimi xatırladım, lakin mənasını başa düşmək üçün məndə maraq hissi oyadan səbəb, xanımların bu kəlməni yavaş və utanaraq dilə gətirmələri idi. Sanki bu kəlmədə utandırıcı bir məna

gizlənirdi. Söhbətin heyz haqqında olduğunu başa düşcək, ixtiyarsız olaraq həya edib utanmağa başladım. Xəcalətimi büruzə verməmək üçün öz-özümdən soruşdum: Nədən utanmalıyam? Bu sual fikrimidə ardıcıl fırlanırdı, nəhayət mənə qalib oldu.

Əgər heyz, doğrudan utancaqlı idi, onda nə üçün bu gün anam onun barəsində mənimlə danışmaq istəyir? Xatırladım ki, adətən bizim söhbətimiz şəriət hökmləri barəsində olur. Deməli, digər şəriət hökmlərinin mövzularından biri kimi heyz də bizim danışığımızın mövzusu ola bilər. Nə üçün Qurani-Kərimin, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alih) və Məsum imamların (əleyhimussəlam) bəyan etdikləri mövzudan utanmalıyıq? Nə üçün hökmlərinə əməl etməyə və ya onu başqalarına öyrətməyə xatir, bir mövzuya tam şəkildə məlumatlı olmağımız lazım gələn halda onun müzakirəsindən utanmalıyıq? Bu fikirlərə qərq olmuşdum ki, birdən anamın səsi diqqətimi cəlb etdi. Belə deyirdi:

Fatimə, heyz olmağın nişanəsi, heyz qanının xaric olmasıdır. O, qadınların alışdıqları və yaxşı tanıdıqları bir qandır. Bu qan, bir qayda ilə hər ay bir dəfə qadınlardan müntəzəm olaraq gedir. Onun xüsusiyyətləri: qırmızı və ya qaraya çalan rəngli, hərarətli, təzyiq və yandırıcı halda xaric olmasıdır.

Fatimə: Heyz qanı görən qadınların müəyyən bir yaş hədləri vardır?

Ana: Bəli, qəməri (ay) təqvimi ilə heyz görən qadının gərək doqquz yaşı başa çatsın[1] və qəməri ili ilə "yaisəlik"[2] yaşı sayılan altımış yaşa da çatmasın.[3]

Fatimə: Demək, bu qan 9 yaşdan 60 yaşa qədər olur.

---

[1] Günəş təqvimi ilə təqribən səkkiz il, səkkiz ay və iyirmi gün edir.

[2] Qadının uşaq doğmağa qadir olmadığı yaş dövrü.

[3] Günəş ili təqvimi ilə təqribən əlli səkkiz il, səksən gün edir.

Ana: Bəli, qəməri tarixi ilə doqquz yaşı tamamlanmayan, hətta bir an qabaq olsa belə, qızın gördüyü hər hansı bir qan, heyz qanı deyildir. Həmçinin, qadının altımış yaşı tamam olduqdan sonra gördüyü hər bir qan da heyz qanı hökmündə olmayacaqdır.

Fatimə: Heyz qanının getməsi neçə gün davam edir?

Ana: Heyzin ən az müddəti üç gün və ən çoxu isə on gün davam edir.

Fatimə: Əgər üç gündən az davam edib sonra kəsilsə, necə?

Ana: Belə qan, heyz qanı hesab edilmir.

Fatimə: Əgər on gündən artıq davam etsə, necə?

Ana: On gün keçdikdən sonra xaric olan qan, heyz qanı deyildir. Çünki heyz qanı on gündən artıq olmur.

Fatimə: Əgər qadın heyz günlərini sona yetirsə və pak olsa, sonra (məsələn, doqquz gün pak olduqdan sonra) yenidən qan görərsə, bunun hökmü nədir?

Ana: Xaric olan iki qanın birisi, heyz qanı hesab edilmir, çünki iki heyz qanı görmək arasında pak olma müddəti on gündən az olmamalıdır.

Fatimə: Qadın hansı zamanda özünü heyz saymalıdır?

Ana: Vəqtiyyə-adəti zamanında və ya ondan bir az öncə, məsələn, bir-iki gün əvvəl xaric olan qanı heyz saymalıdır.

Fatimə: Qadın hansı halda vəqtiyyə-adətinə malik olur?

Ana: Qadın qəməri təqvimi ilə iki ay və ya daha artıq müddətində ardıcıl olaraq müəyyən bir zamanda qan görərsə, vəqtiyyə-adətinə malik olacaqdır.[4]

Fatimə: Əgər qadın vəqtiyyə-adətinə malik deyilsə, məsələn, birinci dəfə qan görən bir qızdırsa və ya müəyyən vaxtda adəti olmayan bir "müztəribə"[5] qadındırsa, nə zamanda özünü heyzli sanmalıdır?

Ana: İndi qeyd edəcəyim iki məsələdən biri baş verərsə, qadın özünü heyzli bilməlidir:

1- Qadından gələn qanda heyz qanının əlamətləri və xüsusiyyətləri olsun; belə ki, qanın rəngi tünd qırmızı və ya qaraya çalsın, çıxarkən isti, təzyiqli və yandırıcı halda olsun.

2- Qan xaric olduqda qadın qanın üç gün və ya daha artıq müddətdə davam edəcəyindən xatircəm olsun.

Fatimə: Əgər qeyd edilən xüsusiyyətlərdən birinə əsasən, qadın özünü heyzli bilsə və namazını qılmazsa, lakin üç gün keçməmiş qanaxma tamamilə kəsilərsə və onun heyz qanı olmadığı məlum olarsa, qadının vəzifəsi nədir?

Ana: Belə olarsa, o müddətdə qılmadığı namazların qəzasını yerinə yetirməlidir.

Fatimə: Əgər qadının gördüyü qan onun adət günlərindən təcavüz etsə, lakin onuncu gün və ya ondan bir qədər öncə kəsilsə, nə etməlidir?

Ana: Qan xaric olan bütün günlərdə özünü heyzli bilməlidir, hərçənd bəzi vaxtlar qanda heyz xüsusiyyətləri olmasa belə.

---

[4] Məsələn; iki qəməri ayında ardıcıl olaraq hər ayın yeddisində qadından qan axmağa başlasın.

[5] Bu qadınlar bir neçə ay heyz qanı görsələr də müəyyən bir adət əldə edə bilməmiş, ya da adətləri pozulmuş və yenidən adət tapmamışlar.

Fatimə: Əgər qadın "vəqtiyyə və ədədiyyə"[6] adətinə sahib olsa, lakin qanaxması on gündən ötərsə, nə etməlidir?

Ana: Bu halda qadın ancaq hər ay özünün adəti günlərini heyz sayacaqdır, o müddətdən qabaqkı və sonrakı günləri isə heyz hesab etməyəcəkdir.

Fatimə: Əgər müəyyən vəqtiyyə və ədədiyyə adətinə sahib olan bir qadından öz adəti vaxtında qan gəlməzsə, lakin adət vaxtı keçdikdən sonra qan gəlsə və qanaxma on gündən artıq davam edərsə və bu qanda bəzi vaxtlar heyz qanı xüsusiyyətləri olsa və bəzi vaxtlarda isə olmasa, qadın o iki halın hansında heyz sayılır?[7]

Ana: Öncə gördüyü heyz xüsusiyyətləri olan qan müddətində qadın heyzlidir. Lakin heyz günlərinin miqdarını təyin etməkdə gərək öz həmişəki adət günlərinin sayını nəzərə alsın. Deməkk, əgər gördüyü heyz xüsusiyyətli qanın müddəti adət günlərindən az olarsa, adət günlərinin sayını tamamlayana qədər heyzdir. Yəni adət müddətinin tamamlanması üçün heyz əlamətləri olmayan ikinci qanın günlərindən birinci qanın günlərinə əlavə edərək, hamısını birlikdə heyz saymalıdır. Amma əgər gördüyü heyz xüsusiyyətli qanın müddəti həmişəki adət günlərindən çox olsa, ancaq öz adət günləri qədər olan müddətdə heyz olacaq, sonrakı günlərdə isə heyz sayılmayacaq.

Fatimə: Əgər qanaxma on gündən artıq olsa və qadının heç bir adəti olmasa, nə vəqtiyyə adəti və nə də ədədiyyə, "mübtədiə"[8] və ya müztəribə qadın olarsa, belə olduqda heyz qanını heyz olmayan qandan necə ayırd edəcəkdir?

---

[6] Bu qadınlar iki ay ardıcıl olaraq müəyyən vaxtda heyz qanı görürlər. Onların heyz günlərinin sayı da hər iki ayda eynidir. Məsələn, iki ay ardıcıl olaraq ayın əvvəlindən yeddisinə kimi heyz qanı görürlər.

[7] Məsələn, bir qadının aylıq adəti ayın birindən yeddisinə qədərdir. Lakin ayların birində ayın səkkizindən etibarən qadında heyz əlaməti olan qanaxma başlayır, amma bir neçə gündən sonra qanda "istihazə" əlamətləri görünür və bu qanaxma ayın iyirmisinə qədər davam edir.

[8] İlk dəfə qan görən qadın.

Ana: Heyz qanını onun xüsusiyyətlərinin dəyişməsinə diqqət etməklə tanıyacaqdır. Deməli, əgər qadının gördüyü qan bir müddət heyz qanının əlamətinə malik olsa və qanaxma üç gündən on günə qədər davam etsə, bu müddətdə qadın özünü heyzli saymalıdır. Heyz əlaməti olmayan qanaxmanı isə "istihazə" qanı saymalıdır.[9]

Fatimə: Əgər qadın heyz qanının kəsilməsi barəsində şəkk edərsə, yəni heyzdən təmizlənib təmizlənməməsi ilə bağlı tərəddüd edərsə, nə etməlidir?

Ana: Özünü yoxlamalıdır.

Fatimə: Özünü necə yoxlamalıdır?

Ana: Bir qədər pambığı fərcinə (qan axan yerə) daxil etsin, bir az gözləsin və sonra onu çıxartsın, əgər pambıq ağdırsa və qana bulanmayıbsa, bu qadın pak olubdur və gərək qüsl edib, namaz və oruc kimi ibadətlərini yerinə yetirsin. Amma əgər pambığın ləkəli və ya qana bulaşdığını görərsə, məlum olacaqdır ki, qadının heyzi hələ sona çatmayıbdır.[10]

Fatimə: Qadın əgər heyzli olduğunu bilərsə, hansı əməlləri yerinə yetirməli və hansı əməlləri tərk etməlidir?

Ana: Heyz olduğu müddətdə qadının şəriət hökmləri bunlardır:

1- Heyz olan qadının vacib və ya müstəhəb namazları qılması səhih deyil və heyz səbəbi ilə qılınmayan namazların sonradan qəzası da yoxdur.

2- Heyzli qadının oruc tutması səhih deyil, ancaq heyz olduğu günlərdə tutmadığı Ramazan ayının oruclarının qəzasını tutması vacibdir. Həmçinin, müəyyən bir günü oruc tutmağı nəzr etmiş olsa, lakin heyz

---

[9] İstihazə mövzusunda və qanda istihazə xüsusiyyətləri barəsində gələcək bəhslərimizdə danışacağıq.

[10] Diqqət! Bakirə qızlarda bu işin bəkarət pərdəsinə xəsarət vurması mümkündür, ona görə də onlar üçün bu təklif münasib deyildir.

sebebinə öz nəzrinə əməl edə bilməzsə və həmin günün orucunu tutmazsa [onun qəzasını da yerinə yetirməlidir].

3- Heyzli qadınla qabaqdan (fərcdən) cinsi əlaqəyə girmək haramdır, lakin qanaxma kəsildikdən [və fərcini yuduqdan] sonra, hərçənd qüsl etməmiş olsa belə, onunla cinsi əlaqə yaratmaq caizdir.

4- Heyz halında qadına talaq vermək batildir, əlbəttə bu barədə "İzahlı şəriət məsələləri" risaləsində bir sıra müstəsna hallar vardır.

5- Heyzli olduqda hər hansı bir bədən üzvünü müqəddəs Qur`anın yazısına [və ya Allah-təalanın adına və məxsus vəsflərinə] toxundurmaq haramdır.

6- Heyzli qadının Məscidul-Hərama və ya Məscidun-Nəbiyyə (sallallahu əleyhi və alih) daxil olması, həmçinin başqa məscidlərin birində durması və ya onlarda bir şeyi saxlaması haramdır.

7- Heyz olmuş qadına vacib səcdəsi olan Qur`an ayələrindən hər birisini oxumaq haramdır.[11]

8- Heyzli qadının istər vacib, istərsə də müstəhəb təvaf etməsi səhih deyil.

9- Heyz qanı kəsildikdə namaz qılmaq üçün qadın qüsl etməlidir.

# İstihazə barəsində bir danışıq

Sonrakı gün anam öz həmişəki yerində oturub, istihazə barəsində danışmağa başladı.

---

[11] Qur`ani-Kərimin vacib səcdəsi olan ayələr bunlardır: "Səcdə" surəsinin 15-ci ayəsi, "Fussilət" surəsinin 37-ci ayəsi, "Nəcm" surəsinin 62-ci ayəsi və "Ələq" surəsinin 19-cu ayəsi.

İstihazə sözünü anamın dilindən eşidərkən, bu kəlmənin hərflərinin heyz kəlməsində olan hərflər tərkibindən olması, amma yeni bir şəkildə tələffüz edilməsi nəzərimi cəlb etdi. Ona görə də belə təsəvvür etdim ki, heyz kimi istihazə də müəyyən şəraitdə qadınlardan gələn, lakin heyz qanından az olan bir qandır.

Fatimə: İstihazə ancaq qadınlara məxsusdurmu?

Ana: Bəli.

Fatimə: Bu da qadından axan qandırmı?

Ana: Bəli, lakin...

Fatimə: Nə lakin?!

Ana: Lakin bu şərtlə ki, heyz, nifas, yara, cərahət və ya bakirəlik qanı olmasın.

Fatimə: Dediyiniz sözün mənası budur ki, qadından axan hər bir qan əgər heyz, nifas, yara, cərahət və ya bakirəlik qanı olmazsa, istihazə qanı sayılır?

Ana: Bəli.

Fatimə: Bunlar bir-birindən fərqli qanlardır?

Ana: Onlardan bəziləri qadının cavanlıq dövründə və hamiləliyə qadir olması səbəbinədir. Diqqət etmisənmi, qadın yaşa dolduqda onun heyz qanı da kəsilir və artıq hamilə olmur?!

Fatimə: Yara, cərahət və ya nifas qanı gəldikdə adətən tanınır, lakin bir qadın gördüyü qanın heyz qanı deyil, məhz istihazə qanı olmasını necə ayırd edə bilər?

Ana: Heyz qanı barəsində deyilən əlamətləri xatırlayırsanmı?

Fatimə: Bəli, heyz qanı adətən qırmızı və ya qaraya çalır, eləcə də xaric olduqda təzyiqlə, yandırıcı və hərarətli olur.

Ana: Əksər hallarda istihazə qanının heyz qanından fərqli əlamətləri vardır. İstihazə qanı adətən sarı rəngli, duru, təzyiqsiz və yandırıcılığı olmayan halda xaric olur.

Fatimə: Qadın izdivac etdiyi ilk gündə bəkarət qanını istihazə qanından necə ayırd edə bilər?

Ana: Bəkarət qanı pambığın ətrafına toxunur və qanlı bir aypara kimi pambığın kənarlarına hopur. Lakin istihazə qanı bəzən pambığın zahirini tamamilə bürüyür, bəzən də onun daxilinə nüfuz edir və bəzi hallarda isə pambıqdan keçib dəsmala da (gigiyenik bezə) toxunur.

Fatimə: Elə isə, istihazə qanı pambığa nüfuz edib onu bütünlüklə bulaşdıra bilər?

Ana: Bəli, amma mümkündür pambığı tamamilə bürüməsin. Ümumiyyətlə istihazə qanı üç qisimdir:

**Qəlilə (az) istihazə**: qan qadının öz fərcinin daxilinə qoyduğu pambığın üzərinə toxunur, lakin az olduğundan pambığın daxilinə hopmur.

**Mütəvəssitə (orta) istihazə**: qan pambığın içərisinə hopur, lakin pambıqdan qadınların adətən qanın qarşısını almaq üçün qoyduqları parçaya (gigiyenik bezə) çatmır.

**Kəsirə (çox) istihazə**: qan tamamilə pambığa hopub ondan keçir və parçaya (gigiyenik bezə) çatıb, onu bulayır.

Fatimə: Bu üç qismin ayrı-ayrılıqda hər birinin hökmü nədir?

Ana: Qəlilə (az) istihazədə qadın hər bir namazı qılmazdan öncə gərək dəstəmaz alsın; istər vacibi namaz olsun, istərsə də müstəhəbbi namaz, qüsl etməsi isə vacib deyil.

Mütəvəssitə (orta) istihazədə qadın hər bir namaz üçün dəstəmaz almaqdan əlavə, hər gün sübh vaxtı gündəlik namazları qılmazdan öncə ancaq bir dəfə qüsl etməlidir.

Fatimə: Buna aid bir misal gətirərsizmi?

Ana: Məsələn, əgər qadın sübh namazından əvvəl istihazə olduğunu bilsə və özünü yoxladıqdan sonra orta istihazə olmasını başa düşsə, gərək qüsl etsin və sonra sübh namazını qılmaq üçün dəstəmaz da alsın. Bu edilən qüsl həmin günün sair namazları üçün də kifayət edir, amma hər bir namaz üçün ayrılıqda dəstəmaz da almaq gərəkdir. Həmçinin, ikinci gün yetdikdə yenidən qüsl edib, əvvəl sübh namazını qılmaq üçün, sonra isə digər namazların vaxtı çatdıqda onlar üçün dəstəmaz alacaq. Bu hökm, istihazənin əlamətləri az və ya çox olana qədər davam edəcəkdir.

Fatimə: Kəsirə (çox) istihazənin hökmü nədir?

Ana: Kəsirə istihazədə qadın gərək gündə üç qüsl etsin: sübh namazı üçün bir qüsl, zöhr və əsr namazlarını bir-birinin ardınca qıldığı halda onlar üçün bir qüsl, eləcə də məğrib və işa namazlarını ardıcıl qılarsa, onlar üçün də bir qüsl etməlidir.

Fatimə: Zöhr və əsr, həmçinin məğrib və işa namazlarını fasilə ilə qıldığı halda hökmü nədir?

Ana: O zaman hər bir namaz üçün ayrılıqda qüsl etməlidir.

Fatimə: Kəsirə istihazənin bütün hallarında bu hökm dəyişməz qalırmı?

Ana: Xeyr; ardı-arası kəsilmədən qan gəlsə və pambığı bulaşdırsa, deyilən hökm qüvvədədir. Amma əgər qanın pambığa toxunması müəyyən fasilə ilə olsa, belə ki, həmin fasilədə qadının qüsl etməkdən əlavə bir və ya bir neçə namaz qılmaq imkanı varsa, belə olan halda hər vaxt qan pambıqdan keçib parçaya toxunarsa, [gərək yenidən qüsl etsin.] Məsələn, əgər qüsl edib zöhr namazını qılarsa və əsr namazını qılmazdan qabaq, yaxud onu qılarkən qan pambıqdan keçib parçaya toxunsa, [əsr namazını qılmaq üçün yenidən qüsl etməsi vacibdir.] Lakin əgər qanaxmanın kəsildiyi fasilədə qadının iki və ya daha artıq namaz qılmaq imkanı varsa, bu halda onun qıldığı namazlar səhihdir və yenidən qüslü təkrar etməyə ehtiyac yoxdur.

Fatimə: İstihazə növünün bir qisimdən başqa qismə dəyişməsi mümkündürmü?

Ana: Bəli; bəzi hallarda qəlilə istihazənin kəsirə və ya mütəvəssitə olması, ya da əksinə dəyişməsi mümkündür.

Fatimə: Qadın, istihazəsinin bir növdən başqa növə dəyişməsindən necə xəbərdar ola bilər?

Ana: [Namazdan əvvəl gərək özünü yoxlamalı] və istihazənin növünə uyğun olaraq əməl etməlidir. Deməli, əgər qəlilə istihazə olmasını bilərsə, gərək qəlilə istihazə hökmlərinə uyğun vəzifəsini yerinə yetirsin. Amma əgər mütəvəssitə istihazə olması məlum oldu, gərək mütəvəssitə istihazənin hökmlərinə əməl etsin və [kəsirə istihazə də eyni qayda ilə] ...

Fatimə: Əgər pambıq bütünlüklə qana bulaşsa və ya qan parçaya (gigiyenik bezə) keçsə, qadının vəzifəsi nədir?

Ana: Əgər onun istihazəsi qəlilə və ya mütəvəssitə olsa, pambığı və parçanı (bezi) hər namazdan öncə dəyişdirməsi və ya yuması yaxşıdır. Amma əgər kəsirə istihazə olarsa, imkan daxilində [gərək onları dəyişdirsin və ya

yusun] və ona zərərli olmazsa, qüsldən sonra namazı tamamlayana qədər qanın kənara çıxmasının qarşısını alsın.

Fatimə: Bu işləri edib, təmiz olduqdan sonra vəzifəsi fasilə vermədən namaz qılmaqdırmı?

Ana: [Bəli].

Fatimə: İstihazənin hökmləri nədir?

Ana: Onun hökmləri belədir:

1- Əgər istihazə qəlilə və ya mütəvəssitə olsa və qanaxma kəsilərsə, namaz qılmaq üçün dəstəmaz alması kifayət edər. Amma əgər kəsirə istihazə olsa, qanaxma kəsilərsə, namaz qılmaq üçün gərək qüsl etsin.

2- İstihazənin üç qismindən hər hansı biri olarsa, qadın təmizliyi üçün qeyd edilən göstərişləri etmədən və təharət almadan Qurani-Kərimin yazısına toxuna bilməz. Lakin vəzifəsinə mütabiq olaraq təharət alsa və özünü təmizləsə, namazın sonuna qədər Qurani-Kərimin yazısına toxunması caizdir.

3- İstihazə halında olan qadına talaq vermək səhihdir.

4- Heyzli qadın haqqında olan bəzi hökmlər istihazəli qadına aid deyildir. O hökmlər bunlardır: heyzli qadınla qabaqdan cinsi əlaqəyə girməyin haram olması, onun məscidə daxil olub orada qalmasının və məsciddə bir şeyi saxıamasının haram olması, həmçinin ona Qurani-Kərimin vacib səcdəsi olan ayələrindən hər birini oxunmasının haram olması.

5- Qəlilə və mütəvəssitə istihazəsi olan qadının, hərçənd namaz qılmaq üçün öz vəzifəsini, yəni dəstəmaz almağı və ya qüsl etməyi yerinə yetirməsə belə, oruc tutması səhihdir. Kəsirə istihazəli qadının haqqında isə bəzi fəqihlərin və alimlərin nəzəri budur ki, belə qadının orucunun

səhih olması onun kəsirə istihazədə vacib olan qüslləri yerinə yetirməsinə bağlıdır. Yəni orucunun səhih olması üçün keçən gecənin istihazə qüsllərini və həmçinin, bu günün qüsllərini yerinə yetirməlidir. Lakin doğru nəzər budur ki, vacib qüsllərini hərçənd yerinə yetirməsə belə, belə qadının orucu səhihdir.

6- Kəsirə istihazəsi olan qadına qüsl etdikdən sonra dəstəmaz almaq vacib deyil, lakin mütəvəssitə istihazəli qadın [qüsldən] sonra gərək dəstəmaz da alsın.

# Nifas haqqında danışıq

Sabahısı gün ana dedi: Bu gün səninlə nifas barəsində söhbət edəcəyəm.

Fatimə: Nifas nədir?

Ana: Doğan qadından və ya doğduqdan sonra qadından gələn qan, nifas qanı adlanır. Nifas qanı görən qadına “nüfəsa” deyilir.

Fatimə: Nifas qanı neçə gün davam edir?

Ana: Nifasın ən çox axma müddəti on gündür.

Fatimə: Ən az müddəti nə qədərdir?

Ana: Ən az müddəti barədə zaman təyini yoxdur, belə ki, mümkündür bir dəqiqə və ya ondan da az olsun.

Fatimə: Elə isə qadınların nifas görmələri bir-birindən fərqlidirmi?

Ana: Nüfəsa qadınlar üç qisimdir və hər birinin özünəməxsus hökmü vardır.

**Birinci**: Qanaxması on gündən artıq olmayan qadın.

Fatimə: Bu qadının şəriət hökmü nədir?

Ana: Bütün qanaxma müddətində ancaq nifas hökmünə əməl edəcəkdir.

**İkinci**: Qanaxması on gündən artıq olan və heyzdə müəyyən ədədiyyə adəti görən qadın, məsələn, hər ay beş gün heyz adəti olan qadın.

Fatimə: Belə bir qadının hökmü nədir?

Ana: Öz adət günləri qədər olan müddətdə nifas hökmünə əməl edəcəkdir, bizim gətirdiyimiz misalda beş gün idi.

Fatimə: Beşinci gündən sonra gördüyü qanın hökmü nədir?

Ana: Sonrakı qanaxma günləri istihazə sayılacaqdır.

**Üçüncü:** Qanaxma müddəti on gündən artıq olan, lakin heyzdə müəyyən bir ədədiyyə adətinə sahib olmayan qadın.

Fatimə: Onun hökmü nədir?

Ana: Ancaq on gün müddətində nifas hökmündədir.

Fatimə: Əgər nüfəsa qadının heyzdə müəyyən adəti varsa və onun qanaxma günlərinin sayı adət günlərindən artıq olsa və qanaxmanın on gündən əvvəl kəsiləcəyini və ya ondan sonra davam edəcəyini bilməzsə, bu qadının vəzifəsi nədir?

Ana: Onuncu günə qədər olan ibadətlərini tərk edə bilər. Deməк, əgər qanaxması onuncu gün sona yetməzdən öncə kəsilərsə, bu müddət ərzində axan qan nifasdır. Amma əgər on gündən artıq davam edərsə, qüsl etməli və istihazə halında olan qadının vəzifəsini yerinə yetirməlidir.

Fatimə: Elə isə bu fasilədə (adət günləri sayından sonra onuncu gün tamam olan müddətdə) tərk etdiyi ibadətlərin hökmü necə olacaqdır?

Ana: Onu istihazə sayacaqdır və bu zaman fasiləsində tərk etdiyi ibadətlərin qəzasını yerinə yetirəcəkdir.

Fatimə: Əgər qanaxma birinci gün kəsilərsə və bir neçə gündən sonra yenidən gələrsə və onuncu gün və ya ondan öncə bir daha kəsilərsə, qadın nə etməlidir?

Ana: Hər iki qanaxma müddətində nifas hökmünə əməl edəcəkdir.

Fatimə: Elə isə bu iki qanaxma müddəti fasiləsində pak olduğu günlərin hökmü nədir?

Ana: Bu fasilədə [qadın gərək öz paklıq günlərindəki vəzifəsi ilə nüfəsa qadına haram olan əməllərini cəm etsin[12]], (məsələn, həmin günlərdə bir tərəfdən öz vacibi namaz və orucunu yerinə yetirsin və digər tərəfdən isə Qurani-Kərimin yazısına toxunmasın və ya məscidin daxilində dayanmasın).

Fatimə: Əgər qanaxma başladıqdan sonra kəsilsə, ardınca bir daha başlayıb yenidən kəsilsə və bu minvalla davam edərsə, lakin qanaxma günlərinin məcmusu on gündən artıq olmazsa, hökmü necədir?

Ana: Qanaxma günlərinin hamısında nifas hökmünə əməl edəcəkdir, arada təmiz olduğu günlərdə isə [gərək paklıq günlərində olan vəzifəsi ilə nüfəsa qadına haram olan əməlləri cəm etsin].

Fatimə: Nifas müddətini sona yetirdikdən sonra əgər qadında yenidən qanaxma başlayarsa, hansı hökmə əməl etməlidir?

[12] Nüfəsa qadına haram olan əməlləri tərk etsin, pak olan qadına vacib olan əməlləri yerinə yetirsin.

Ana: Nifas müddəti tamamlandıqdan sonra qadının on gün ərzində gördüyü hər bir qan istihazədir, istər heyz qanının əlamətlərinə malik olsun, istərsə də xeyr və bu qanaxma istər heyz adəti günlərində olsun, istərsə də başqa günlərdə.

Fatimə: Nifas müddəti tamamlandıqdan on gün ötdükdən sonra qadında qanaxma davam edərsə, o, yenə də istihazə hökmündədirmi?

Ana: Xeyr, onun hökmünün təfsilatı vardır və bu barədə gərək "İzahlı şəriət məsələləri" risaləsinə müraciət edilsin.

Fatimə: Nüfəsa qadının hökmləri hansılardır?

Ana: Heyz qanı görən qadına aid olan bütün hökmlər nüfəsa qadına da aiddir, istər vacib hökmlər olsun, istərsə də haram hökmlər. [Hətta vacib səcdəsi olan ayələrin oxunması, Məscidul-Həramdan və Məscidun-Nəbidən (sallallahu əleyhi və alih) keçib getmək, digər məscidlərdə dayanmaq və onlarda bir əşya saxlamaq].

# Qüsl haqqında bir danışıq

Bu gün anam mənə qüsl etməyi öyrədəcəkdir.

Ana: İki növ qüsl etmək qaydası vardır: irtimasi qüsl və tərtibi qüsl.

Fatimə: İrtimasi qüsl necədir?

Ana: Bir anda qüsl niyyəti ilə bədənin bütün üzvlərini suyun altına salmaqla irtimasi qüsl edilir. Qeyd edim ki, "İzahlı şəriət məsələləri" risaləsində irtimasi qüslün başqa bir qaydası da yazılmışdır.

Fatimə: Tərtibi qüslün qaydası necədir?

Ana: Tərtibi qüsldə gərək əvvəlcə qüsl niyyəti ilə başı və boyunu, sonra da bədəni tam şəkildə yuyasan. Daha yaxşı olar ki, başı və boyunu yuduqdan sonra əvvəl bədənin sağ tərəfini, sonra isə sol tərəfini yuyasan. Qulaqları yuduqda suyu onlara daxil etmək lazım deyil, sadəcə olaraq onların zahirini yumaq kifayət edir.

[Əgər duşun altında qüsl etmiş olsan, başı və boyunu yuduqdan sonra – bir anlıq olsa da belə – duşun altından çəkil və daha sonra digər bədən üzvlərini yumağı davam etdir].

Fatimə: Görəsən, qüslün də müəyyən şərtləri vardır?

Ana: Bəli, dəstəmazın şərtlərini qüsldə də riayət etmək lazımdır, o cümlədən, niyyət etmək, suyun pak , mübah[13] və mütləq[14] olması, bədən üzvlərinin təmiz olması, üzvlərin yuyulmasında tərtib və ardıcıllığı qorumaq, imkan daxilində üzvləri bilavasitə şəxsin özü yuması və suyun istifadəsinin qüsl edən şəxsə, xəstəlik kimi heç bir zərər və maneəsi olmasın.

Lakin iki məsələdə dəstəmaz və qüsl arasında fərq vardır, bu iki məsələyə diqqət yetirməyini istəyirəm.

Fatimə: O iki məsələ hansıdır?

Ana: Birinci: Qüsl etdikdə bədən üzvlərini yuxarıdan aşağıya doğru yumaq vacib deyildir.

İkinci: Dəstəmazdan fərqli olaraq qüsldə muvalatın[15] riayət edilməsi şərt deyildir. Deməli, baş və boyunu yuduqdan müəyyən vaxt keçdikdən sonra, hərçənd boyun və başın suyu qurumuş olsa belə, bədənin digər üzvlərini yuya bilərsən.

---

[13] Qəsb etmə və qanunsuz mənimsəməklə haram olmasın və işlədilməsi halal sayılsın.

[14] Xalis olsun; palçıqlı və ya meyvə suyu kimi başqa bir şeylə qarışaraq normal su halətindən çıxmasın.

[15] Əməllərin ardıcıl və ara vermədən yerinə yetirilməsi.

Əlbəttə bu məsələyə də diqqət etməlisən ki, dəstəmazda üzünü yuyarkən qaşların üzərini yumaq kifayətdir və qaşların altında dərini yumağa ehtiyac yoxdur. Yaxud başa məsh çəkərkən başın qarşı tərəfində saçın üzərinə məsh etmək kifayətdir, halbuki qüsldə suyu gərək qaşın və saçın altındakı dəriyə çatdırasan. Kişilər isə qüsl zamanı gərək suyu bığ və saqqallarının altındakı dəriyə çatdırsınlar. Sonrakı məsələyə gəldikdə...

Fatimə: Daha hansı məsələ vardır?

Ana: Cənabət qüslü dəstəmazın yerini tutur.

Fatimə: Yəni namaz qılmaq üçün qüsl edərəmsə, artıq dəstəmaz almağım lazım deyil?

Ana: Bəli, dəstəmaz almadan elə həmin qüsl ilə namazını qılmalısan.

Fatimə: Əgər bir qadın cənabət, heyz və cümə qüsllərini etmək istərsə, hökmü nədir?

Ana: Cənabət qüslü və ya heyz qüslü niyyəti ilə bir qüsl edərsə, həmin qüsl sair qüsllərin də yerini tutur. Amma cümə qüslünə gəldikdə, bu qüslü edərkən icmal və müxtəsər şəkildə olsa da belə, gərək onu niyyətindən keçirsin. Əks təqdirdə [cənabət qüslü və başqa qüsllər cümə qüslünü əvəz etməz].

İndi sənə qüsl etdikdə faydalı olan bir neçə məsələni deyəcəyəm:

1- Əgər bədən üzvlərində bir nəcasət olsa, qüsl etməzdən öncə onun təmizlənib aradan getməsindən xatircəm olmalısan.

2- Qüsl edərkən suyun bədənə yetişməsinə maneə olan yapışqan və ya dırnaq lakı kimi, hər bir şeyi təmizləməlisən. Əgər onları təmizləmək çox çətin və ya qeyri-mümkün olsa, qüsl əvəzinə təyəmmüm etməyə borclusan.

Amma əgər o maneə təyəmmüm üzvləri üzərində olsa, belə olan halda [gərək həm qüsl edəsən, həm də təyəmmüm alasan].

3- Bədənini yuyan zaman əgər baş və boyunun tamamilə yuyulub yuyulmaması barəsində şəkk etsən, bu halda yenidən qayıdıb şəkk etdiyin yeri yumağın, sonra isə qüslü davam etdirmyin [lazımdır].

Fatimə: Cənabət, heyz, nifas, istihazə, meyit və məss meyit qüslləri, hamısı vacibi qüsllərdir, görəsən, bunlardan başqa qüsllər də vardır?

Ana: Bəli, lakin onlar müstəhəb qüsllərdir, o cümlədən:

a) Cümə qüslü; bu qüslü etmək təkidli müstəhəb əməllərdən biridir. Onun vaxtı Cümə günü dan yeri sökülləndən (sübh azanından) günəşin batmasına qədərdir və zöhr vaxtına yaxın edilsə, daha yaxşı olar.

b) Ehram qüslü.

c) Fitr və Qurban bayramı günlərinin qüslü; onun vaxtı dan yeri sökülləndən (sübh azanından) günəşin batmasına qədərdir və yaxşı olar ki, bayram namazından əvvəl yerinə yetirilsin.

ç) Zil-hiccə ayının 8-ci və 9-cu günlərinin qüslü; 9-cu günün qüslünü zöhr azanı vaxtı yerinə yetirmək daha yaxşıdır.

d) Mübarək Ramazan ayının 1-ci, 17-ci, 19-cu, 21-ci, 23-cü və 24-cü gecələrinin qüslü.

e) İstixarə üçün edilən qüsl.

ə) Yağış diləmək (istisqa) üçün edilən qüsl.

f) Məkkəyə daxil olmaq qüslü.

g) Kəbəni ziyarət etmək qüslü.

h) Həzrət Peyğəmbərin (sallallahu əleyhi və alih) məscidinə daxil olmaq qüslü.

Bütün bu qüslləri etmək dəstəmazı əvəz edir.

Digər müstəhəb qüsllər də vardır, lakin vaxtın azlığına görə onların adlarını çəkmirəm. Müstəhəb olması sübuta yetmiş bu qüslləri etdikdə dəstəmazın da əvəzini verir. Amma şəri baxımdan tutarlı dəlillər vasitəsilə müstəhəb olması sabit edilməmiş qüsllər dəstəmazın yerini tutmur, lakin bununla belə, savab əldə etməyə ümidvar olmaq qəsdi ilə (rəcaən) onları yerinə yetirmək olar.

# Təyəmmüm haqqında bir danışıq

Bu gün anamla təyəmmüm barəsində danışacağam. Teyemmüm kelmesi mənə tanış gəlir, Qurani-Kərimi tilavət edərkən onunla rastlaşmışam. Lakin bu kəlmənin hansı surədə və hansı ayədə olması xatirimə gəlmir. Ona görə bugünkü söhbəti belə bir sual ilə başladım:

Fatimə: Anacan, teyemmüm kəlməsini Qurani-Kərimin hansı ayəsində gördüyümü xatırlaya bilmirəm?!

Ana: Bu kəlmə Nisa surəsində gəlibdir, Allah-taala buyurur:

"وَإِنْ كُنْتُمْ مَرْضَى أَوْ عَلَى سَفَرٍ أَوْ جَاءَ أَحَدٌ مِنْكُمْ مِنَ الْغَائِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاءَ فَلَمْ تَجِدُوا مَاءً فَتَيَمَّمُوا صَعِيدًا طَيِّبًا فَامْسَحُوا بِوُجُوهِكُمْ وَأَيْدِيكُمْ إِنَّ اللَّهَ كَانَ عَفُوًّا غَفُورًا"

“Xəstələndikdə, ya səfərdə olduqda və ya sizlərdən biri ayaq yolundan gəldikdə, yaxud qadınlarla yaxınlıq etdiyiniz zaman (qüsl və dəstəmaz üçün) su tapmasanız, pak ( və təbii halını itirməmiş) bir torpaqla

təyəmmüm edin, (ovuclarınızla) üzünüzün və əllərinizin bir hissəsinə məsh çəkin! Şübhəsiz ki, Allah sizi əfv edər və bağışlayar!”[16]

Bu mübarək ayə bizə nə zaman, nə ilə və hansı şəkildə təyəmmüm etməyimizi öyrədir.

Fatimə: Ana, nə zaman təyəmmüm etmək lazımdır?

Ana: Qüsl və ya dəstəmaz əvəzindən təyəmmüm etmək halları bunlardır:

1- Qüsl və ya dəstəmaz almaq üçün su ehtiyatın kifayət qədər olmadıqda.

2- Su ehtiyatı kifayət qədər olmasına baxmayaraq, onu əldə etmək imkanın olmadıqda. Məsələn, xəstəlik üzündən özünü suya çatdıra bilmədikdə və ya sudan istifadə etməyin – qəsb olunmuş qabdan mübah suyu götürmək kimi – haram bir əmələ mürtəkib olmağına səbəb olsun. Yaxud da su əldə etmək xatirinə canın, namusun və mal-dövlətin təhlükə ilə üzləşəcəkdir.

3- Dəstəmaz və ya qüsl üçün sudan istifadə etdiyin halda su azlığı səbəbinə sənin, yaxud sənə bağlı olan (və qorunması sənə həvalə edilən) başqa birisinin susuz qalmaq qorxusu olduqda. Hətta həyatı sənin üçün əhəmiyyətli sayılan bir heyvanın susuz qalması qorxusu olduğu halda da təyəmmüm etməyə vəzifəlisən.

4- Namazın vaxtı olduqda qüsl edəcəyin və ya dəstəmaz alacağın halda, kamil bir namaz qılmaq üçün kifayət qədər vaxt qalmayacaq və vaxt darlığı yaranacaqdır.

5- Qüsl və dəstəmaz üçün su əldə etmək üçün, yaxud bu iki məqsədlə sudan istifadə etmək səbəbinə, dözülməsi çətin olan məşəqqət və sıxıntı hissi keçirəcəksən. Məsələn, birisinə ağız açıb su istəmək, səni zillətə salıb xar edəcəkdir. Yaxud suyun xüsusiyyətinin pis dəyişməsi səbəbinə səndə

[16] Nisa surəsi, ayə 43.

yaranmış çimçişmək və ikrah hissi, ondan istifadə etməyi son dərəcə çətinləşdirsin.

6- Qüsl və ya dəstəmaz üçün əldə etdiyin suyu başqa bir yerdə istifadə etmək vəzifəsini daşıyasan. Məsələn, məscid nəcis olduğu halda, məsciddən nəcasəti pak etmək üçün suyu işlətmək məsuliyyəti boynuna gəlsin.

7- Sudan qüsl və ya dəstəmaz üçün istifadə etdiyin halda zərərli olacağından qorxsan. Məsələn, sudan istifadə etmək xəstələnməyinə səbəb olsun, yaxud xəstəliyin uzanmasına və ya daha şiddətlənməsinə, yaxud da çətinliklə sağalmasına bais olsun. Bütün bu hallarda vəzifən cəbirə dəstəmazı almaq olmazsa, təyəmmüm etməyə borclusan.

Fatimə: İndi nə zaman təyəmmüm edəcəyimi başa düşdüm, lakin hansı şeylərin üzərinə təyəmmüm etmək lazımdır?

Ana: Torpağa, çınqıla, kəsəyə, daşa və bu kimi “yer” deyiləcək hər bir şeyin üzərinə təyəmmüm etmək olar. Bu şərtlə ki, pak [və təmiz] olsun və qəsb edilmiş olmasın, yəni mübah olsun.

Fatimə: Necə təyəmmüm etməliyəm?

Ana: İndi sənin qarşında təyəmmüm edəcəm, mənə baxıb öyrənərsən...

Anam bunu deyib, təyəmmüm almağa başladı: öncə barmağında olan üzüyü çıxartdı, sonra əllərinin içini [eyni anda] bir dəfə yerə vurdu. Sonra iki əlini birləşdirərək onların iç tərəfini alnının yuxarısına qoydu və başının saçı bitən yerdən [qaşlarının üzərinə] və burnunun yuxarı hissəsinə qədər çəkdi. Daha sonra sol əlinin içi ilə sağ əlinin arxasını bütünlüklə tutan şəkildə, biləyindən barmaqlarının ucuna qədər məsh etdi. Nəhayət, sağ əlinin içi ilə sol əlinin arxasını tamamilə, əlin biləyindən barmaqların ucuna qədər məsh etdi.

Fatimə: Təyəmmüm etmək, bu asanlıqda və tezlikdə tamamlanır?

Ana: Bəli, yalnız təyəmmüm deyil, əslində öyrəndikdən sonra bütün hökmlər asandır. Allah-taala Qurani-kərimdə buyurur:

" يُرِيدُ اللَّهُ بِكُمُ الْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ الْعُسْرَ "

“Allah sizin üçün çətinlik və məşəqqət deyil, asanlıq istəyir...”[17]

Fatimə: Təyəmmüm etməyin şərtləri də vardırmı?

Ana: Bəli, təyəmmüm etməyin şərtləri bunlardır:

1- (Öncə işarə edildiyi kimi) dəstəmaz almaq və ya qüsl etmək imkanın olmasın.

2- Təyəmmümü Allah-taalaya yaxınlaşmaq qəsdi və niyyəti ilə yerinə yetirəsən.

3- Üzərinə təyəmmüm etdiyin şey pak [və təmiz] olsun və qəsb edilmiş olmasın. Həmçinin, üzərinə təyəmmüm edilməsi səhih sayılmayan şeylə qarışığı olmamalıdır. Məsələn, torpağa kül qarışmasın. Əlbəttə, eger torpaqda külün miqdarı çox az və yox dərəcədə[18] olarsa, onun üzərinə təyəmmüm etmək olar.

4- [Üzərinə təyəmmüm edilən şey gərək toz və qubarlı olsun ki, əldə qalsın. Bu əsasla, toz və qubarı olmayan saf daşın üzərinə təyəmmüm etmək səhih deyildir].

5- Alını məsh etdikdə, [əlləri yuxarıdan aşağıya doğru çəkmək lazımdır].

6- Təyəmmüm ancaq vaxtın sonuna qədər üzrün aradan gedəcəyindən ümidini kəsib mə’yus olduğun halda səhihdir. Bu da elə bir halda ola bilər

---

[17] Bəqərə surəsi, ayə 185.

[18] İstilahda buna “müstəhlək” olmuş deyilir, yəni camaatın gözündə külün torpağa olan nisbəti yox dərəcədə az olsun.

ki, təyəmmümü namaz üçün, yaxud vaxtı məhdud olan hər hansı bir vacib əməli yerinə yetirmək məqsədilə edəsən.

7- İmkan daxilində gərək təyəmmümü özün, təklikdə edəsən və başqa birisindən kömək almayasan.

8- Təyəmmüm edərkən gərək işləri ardıcıl və fasiləsiz yerinə yetirəsən. Deməli, əgər onların arasında camaat baxımından "təyəmmüm etmir" deyiləcək qədər fasilə verilsə, təyəmmüm batil olar.

9- Təyəmmüm üzvlərində bir maneə olmasın, məsələn, alında, əllərin içində və ya üstündə bir maneə olarsa, təyəmmüm səhih deyil.

10- Alnını sağ əlindən öncə məsh etməlisən və sağ əlinə də sol əlindən qabaq məsh çəkməlisən.

Fatimə: Xəstəliyim üzündən dəstəmaz, ya qüsl üçün sudan istifadə etməmək üzrüm olduğu üçün təyəmmümlə namaz qılsam, sonra həkim sudan istifadə etmək icazəsi versə, hələ namaz qılmaq vaxtı qalmış olarsa, vəzifəm nədir?

Ana: Namazın səhihdir və onu yenidən qılmaq lazım deyil. Əlbəttə bu hökm, etdiyin təyəmmümün məşru (şəriət baxımından icazə verilmiş) olduğu halda belədir. Necə ki, təyəmmüm etdiyin zaman namaz vaxtının sonuna qədər üzrün aradan gedəcəyindən ümidini kəsmiş olasan.

Fatimə: Həkim tərəfindən bir neçə gün sudan istifadə etmək mənə qadağan olunduğu halda, təyəmmümlə namaz qılsam. Sağaldıqdan sonra sudan istifadə etmək icazəsi verərsə, təyəmmümlə qıldığım namazları yenidən qılmağım lazımdırmı?

Ana: Xeyr, onları təkrarən qılmayacaqsan.

Fatimə: Namaz vaxtı yetdikdən sonra üzrlü bir səbəbdən təyəmmümlə namaz qılaramsa, sonra üzrüm hələ aradan getmədiyi bir halda növbəti namazın vaxtı yetişərsə, o namaz üçün yenidən təyəmmüm etməliyəmmi?

Ana: Xeyr, təkrar təyəmmüm etməyin lazım deyil. Çünki üzrün davamlı olduğu və onun aradan getmək ehtimalını etmədiyin zamana qədər ilk təyəmmüm hələ də qüvvədə qalır.

Fatimə: Əgər cənabət qüslü əvəzindən təyəmmüm etmiş olsam, namaz qılmaq üçün dəstəmaz da almalıyam?

Ana: Xeyr, etdiyin təyəmmüm həm qüsl əvəzinə, həm də dəstəmaz əvəzinə kifayət edir.

Fatimə: Əgər cənabət qüslü əvəzindən təyəmmüm etdikdən sonra, məsələn, ayaq yoluna getsəm və ya yuxulasam, dəstəmaz, ya qüsl üçün bir daha təyəmmüm etməyim lazımdır?

Ana: Əgər dəstəmaz almaq imkanın varsa, dəstəmaz al. Bunu edə bilməsən, dəstəmaz əvəzindən təyəmmüm et.

Fatimə: Əgər sol əlimin arxasını məsh etdiyim zaman alnımın və ya sağ əlimin məsh edilməsində şəkk etsəm, bu halda vəzifəm nədir?

Ana: Bu şəkkinə etina etməməlisən.

Fatimə: Əgər təyəmmüm edib qurtardıqdan sonra belə bir şəkk etsəm necə?

Ana: Yenə də bu şəkkinə etina etməməlisən.